

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 169 (23.331)

*11 sentyabr 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda Aşura mərasimi keçirilib

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən-nəsillərə keçib, yaşayıb, bu günlərə gəlib çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir”.***

Bu gün muxtar respublikada dini-mənəvi dəyərlərimiz qorunub yaşadılır, İslam elmi cəhətdən öyrənilir və təbliğ edilir.

Sentyabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Cümə məscidində keçirilən Aşura mərasimində iştirak etmişdir.

Mərasimdə “Qurani-Kərim”dən ayələr oxunmuş, dualar edilmiş, ehsan verilmişdir.

Dindar Ağalar Bayramov demişdir: Muxtar respublikamız inkişaf edir, abadlaşır, quruculuq işləri aparılır. Bununla yanaşı, mənəvi dəyərlərimiz də qorunur, yeni məscidlər tikilir, dindarlar üçün ibadət şəraiti yaradılır. Aşura mərasimlərinin İslamın dəyərlərinə uyğun qeyd



olunması da bu tədbirlərin davamıdır. Ağalar Bayramov dini-mənəvi dəyərlərimizin yaşadılması sahəsində həyata keçirilən tədbirlərə görə muxtar respublika dindarları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Məhərrəm ayının 10-cu günü – Aşura İslam tarixinə İmam Hüseyn və tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi daxil olmuşdur. İmam Hüseyn islahatçı olmuş, insanları doğruya dəvət etmiş, bu yolda öz həyatını və yaxınlarını qurban vermişdir. Bu mənada, Aşura mərasimləri yalnız yas tutmaq deyil, həm də İmam Hüseynin yolunun davam etdirilməsi, İslam dininə sadiqlik deməkdir. Muxtar respublikada keçirilən Aşura mərasimlərində də insanlar bu mənəvi dəyərlər ətrafında həmrəy olmuş, məscidlərdə qanvermə aksiyaları keçirilmiş, ehtiyacı olanlara həyat verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Xüsusi qayğıya ehtiyacı olan tələbələrlə görüş



*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 2018-2019-cu tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə daxil olan xüsusi qayğıya ehtiyacı olan tələbələrlə görüş keçirilib. Görüşdə 2018-2019-cu tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə daxil olan sağlamlıq imkanları məhdud, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş tələbələr, valideynlər və himayəçilər iştirak ediblər.*

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbirdə çıxış edərək bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət uşaq və gənclər siyasəti bu gün ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Bütün kateqoriyadan olan uşaqlara hərtərəfli diqqət və qayğı göstərilir.

Komitə sədri diqqətə çatdırıb ki, muxtar respublikada uşaqların bütün hüquqları ilə yanaşı, təhsil hüquqlarının da təmin olunması diqqətdə saxlanılır, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir. Onların sağlamlıqlarının qorunması, təhsil almaları, asudə vaxtlarının səmərəli təşkili istiqamətində bir sıra işlər görülür.

Qeyd edilib ki, tələbə olduqları zaman da onlar dövlətimizin davamlı qayğısı ilə daim əhatə olunur və bu qayğı qanunvericiliklə tənzimlənir. Bunun bariz nümunəsi olaraq istər valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, istərsə də sağlamlıq imkanları məhdud olan 18 yaşınadək uşaqların təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 may tarixli “I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında” Sərəncamına əsasən Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan müvafiq kateqoriyadan olan şəxslərin təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019-2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək. Həmçinin “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər, dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Komitə sədri bildirib ki, hazırda muxtar respublika əhalisinin 35,79 faizini uşaqlar təşkil edir. Bunlardan 113-ü valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, 1847-si sağlamlıq imkanları məhdud uşaqlardır. 2019-cu ildə 1515 uşaq ali təhsil müəssisələrinə qəbul olub ki, bunlardan 18-i sağlamlıq imkanları məhdud, 4-ü valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlardır. Bu il qəbul imtahanlarında 281 uşaq 500-700 arası bal toplayıb. Bunlardan 3-ü sağlamlıq imkanları məhdud uşaqlardır. Bu il orta ixtisas təhsili müəssisələrinə qəbul olanlardan 5-i isə bu kateqoriyadan olan uşaqlardır.

Ramilə Seyidova muxtar respublikada uşaqlara göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra tələbə adını qazanmış Şərur rayon Tumaslı kənd tam orta məktəbinin məzunu Rasim Axundov çıxış edərək onlara göstərilən diqqət və qayğıdan danışıb.

Tələbələr, valideynlər və himayəçilər göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildirib.

Tədbirin sonunda xüsusi qayğıya ehtiyacı olan tələbələrə hədiyyələr verilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Ailə təsərrüfatları üçün seminar-müşavirə

Ordubad rayonunun Sabirkənd yaşayış məntəqəsindəki kənd mərkəzində “Ailə təsərrüfatlarında kənd təsərrüfatı bitkilərinin əkin atlaslarına uyğun keçirilməsi və torpaqlardan səmərəli istifadə olunması, meyvə-tərəvəz, bostan məhsullarının qurudulması və qablaşdırılması, eləcə də Naxçıvan qovurması istehsalının genişləndirilməsi və həmin məhsulların nümayişi, ixracının təşviqi və kataloqunun hazırlanmasının əhəmiyyəti” mövzusunda seminar-müşavirə keçirilib. Tədbir Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutu Ordubad Rayon İcra Hakimiyyəti ilə birgə təşkil edilib.

Ordubad Rayon İcra Hakimiyyəti Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Zamiq Babayev seminar-müşavirəni açıq elan edərək rayonda ailə təsərrüfatlarına göstərilən dövlət dəstəyi haqqında məlumat verib.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Xaliq Abbasov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Oqtay Məmmədov, İqtisadiyyat Nazirliyinin əməkdaşı İlham Seyidov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin şöbə müdiri Əli Şərifov, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşı Loğman Bayramov çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında 2019-cu ilin “Ailə təsərrüfatları ili” elan olunması, aqrar sahəyə göstərilən hərtərəfli və davamlı dövlət qayğısı bu sahənin inkişafına stimul verib. Göstərilən qayğının nəticəsidir ki, əkin sahələri genişlənir, intensiv metodlara, mütərəqqi suvarmalara üstünlük verilir. Eyni zamanda əkinlərin “Əkin atlaslarına” uyğun aparılması ilə, növbəli əkin sistemindən yararlanmaqla sahələrdən daha yüksək məhsul əldə etmək olar.



Tədbirdə o da vurğulanıb ki, 2017-ci ildən başlayaraq muxtar respublikamızda ailə təsərrüfatlarının sayı artmaqdadır. Sahibkarlara güzəştli şərtlərlə kreditlərin, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların verilməsi, arıçılıq avadanlıqlarının lizinq yolu ilə əhaliyə çatdırılması, subsidiyaların ödənilməsi, arıçılıq təsərrüfatlarının müxtəlif dərman preparatları ilə pulsuz təmin edilməsi, istehsal olunmuş məhsulların satışı üçün əlverişli şəraitin yaradılması və keçirilən festivallar muxtar respublikada bu təsərrüfatların inkişafına hərtərəfli şərait yaradıb. Məhz bunun nəticəsidir ki, əgər 2017-ci ildə 201 ailə təsərrüfatı muxtar respublikada keçirilən festivallara məhsul çıxarırdılarsa, ötən il onların sayı 319 olub, bu il isə 1000-i keçib. Bu gün muxtar respublika əhalisinin yerli kənd təsərrüfatı məhsulları ilə təminatı yüksək səviyyədə həyata keçirilir. Əldə olunan uğurlu nəticələr ailə təsərrüfatının inkişaf etdirilərək təkmilləşdirilməsinə öz töhfəsini verməkdədir.

**Abbas SEYİD**

## Aşura günü münasibətilə könüllü qanvermə aksiyası olub



Hər il muxtar respublikada mənəvi birlik rəmzi olan Aşura mərasiminin keçirilməsi həm də dini dəyərlərin yaşadılması və təbliğinin tərkib hissəsidir. Bu il də Naxçıvan şəhərində, o cümlədən muxtar respublikamızın rayonlarında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə Aşura günü qana ehtiyacı olan xəstələrə yardım məqsədilə könüllü qanvermə aksiyaları keçirilib.

Mərasimlərdə müqəddəs “Qurani-Kərim”dən ayələr oxunub, dualar edilib. Naxçıvan şəhərinin Sarvanlar, Came, Pirqəmiş məscidlərində təşkil olunan mərasimlərdə iştirak edən vətəndaşlar könüllü şəkildə qan veriblər. Həkim briqadaları əvvəlcə müayinələr aparıb, sonra müvafiq qan qruplarına uyğun qan götürülüb. Qanvermə aksiyaları Şərur rayonunda 4, Babək rayonunda 5, Culfa rayonunda 2, Kəngərli rayonunda 3 məscid və kənd həkim ambulatoriyasında, Ordubad, Şahbuz və Sədərək Rayon Mərkəzi xəstəxanalarında da həyata keçirilib. Dindarlar sivil qaydada, könüllü olaraq qan veriblər. Bir neçə saat davam edən aksiyada donorlardan götürülən qanın qrupları müəyyənləşdirilərək birli və ikili torbalarda Qan Bankına təhvil verilib. Beləliklə, xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq Qan Bankında saxlanılacaqdır. Tədarük olunan qan və qandan hazırlanmış preparatlardan hemofiliyalı və talassemiyalı, həmçinin operativ əməliyyatlarda qana ehtiyacı olan bütün digər xəstələrin müalicəsində istifadə olunacaq.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## "Azərbaycanın 7 möcüzəsi" layihəsinin yaradıcı direktoru Elnur Talıblı: "Bir çox ölkələrdə Naxçıvanın idarəçilik sistemi dərslik kimi öyrənilməlidir"

*Azərbaycanda ilk dəfə reallaşdırılan "Azərbaycanın 7 möcüzəsi" layihəsinin çəkiliş qrupu 1-6 sentyabr tarixlərində Naxçıvan Muxtar Respublikasında çəkiliş aparıblar.*

**Layihənin yaradıcı direktoru Elnur Talıblı Naxçıvan televiziyasına müsahibəsində deyib:** "Layihənin ən mühüm əhə-



miyyəti ondan ibarətdir ki, Azərbaycanın 7 möcüzəsi xalqımız tərəfindən seçiləcəkdir. Seçilən həmin abidələr Azərbaycanın 7 möcüzəsi kimi tarixdə qalacaqdır. Bu layihə çərçivəsində bütün Naxçıvanı gəzdik və çəkilişlər apardıq. Müşahidə etdiyim bir neçə məsələni qeyd etmək istəyirəm. Naxçıvanda heyrətləndirici amillər çoxdur. Məsələn, qonaqpərvərlik, insanların gülərüzlülüyü, xoşbəxt simaları. İndiki dövrdə bu, çox önəmlidir. Çox az ölkələr var ki, orada küçədə gəzərkən xoşbəxt simalı insanlara rast gələsən. Lakin Naxçıvanda bu, belədir.

Muxtar respublikada çəkiliş apararkən üç amil məni daha çox heyrətləndirdi. Birincisi, Naxçıvanda oturmuş bir ideologiya var. Yəni Naxçıvan Muxtar Respublikasında yaşayan hər bir Azərbaycan vətəndaşının ideoloji cəhətdən düşüncəsi tam formalaşıb. O bilir nə üçün yaşayır, necə yaşayır. Onun gələcəyi necə olacaq və bu gələcəkdən çox ümidlidir. O bilir ki, nəyə görə çalışır, nəyə görə zəhmət çəkir. Onun gələcəyə baxışı tam fərqlidir, öz gələcəyindən çox əmindir. Bu, çox önəmlidir.

İkincisi, Naxçıvanın iqtisadi sistemi, ən əsası isə idarəçilik sistemi mənim çox xoşuma gəldi. Çünki bilirsiniz, blokada şəraitində olan Naxçıvanın Azərbaycanın əsas ərazisi ilə heç bir quru əlaqəsi yoxdur. Lakin Naxçıvanda çox mükəmməl idarəetmə sistemi qurulub. Ucqar kəndlərə getdik, sərhədyanı zonalarda, hətta birbaşa sərhəddə olduq. Hara getdiksə, biz bu sistemin effektli işlədiyinin şahidi olduq.

Üçüncüsü və ən əsası Naxçıvanın gələcək inkişaf strategiyası var. Yəni Naxçıvanın bugünkü inkişafı xaotik deyil. Muxtar respublikada planlı və nizamlı şəkildə gələcəyin inkişaf strategiyası formalaşdırılıb. Naxçıvan bu strategiya üzərində elə iri addımlarla irəliləyir ki, bizə bəzən elə gəlir ki, bunun bəhrəsini yalnız bu gün görürük. Təbii ki, bu gün də görürük. Amma biz Naxçıvanın bugünkü inkişaf strategiyasının əsl bəhrəsini 50 il sonra gördükdə inana bilməyəcəyik. Yəni 10 il bundan əvvəlki Naxçıvanla bugünkü Naxçıvan arasında necə fərq varsa, 50 il sonra 10 qat fərqin şahidi olacağıq. Çünki bu gün onun çox gözəl təməli qoyulur.

Naxçıvanın inkişaf strategiyası möhkəm fundament üzərində həyata keçirilir. Məktəblər, uşaq bağçaları, ali təhsil ocaqları tikilir. Əsas güc insanların rahatlığına, təhsilinə, gənc nəslin formalaşdırılmasına sərf olunur. Layihəmiz "Azərbaycanın 7 möcüzəsi" adlanır. Lakin tam səmimi etiraf edirəm ki, Azərbaycanda 8-ci möcüzə layihəsi təqdim olunmalıdır və 8-ci möcüzə olaraq da Naxçıvanın idarəçilik sistemi nümunə kimi götürülməlidir. Çünki dünyanın bir çox ölkələrində olmuşam, lakin bu cür mükəmməl idarəçilik sistemi görməmişəm. Belə düşünürəm ki, bir çox ölkələrdə Naxçıvanın idarəçilik sistemi dərslik kimi öyrənilməlidir. Ən əsası isə təbliğ olunmalıdır ki, belə bir idarəetmə sistemi var və bu, sırf Naxçıvanda tətbiq olunan idarəçilik sistemidir".

## Naxçıvanda üzümçülük ənənələri: dünən və bu gün

*Üzüm çox məhsuldar olmaqla yanaşı, həm də quraqlığa davamlı bir bitkidir. Məhsul yetişdikdən sonra dörd aya qədər qala bilir. Bu meyvə qurudulmaq üçün də əlverişlidir və şərab hazırlanması üçün əsas xammaldır. Tarixi mənbələr göstərir ki, Azərbaycanda yetişən üzüm və ondan alınan şərablar bütün dövrlərdə dünya səviyyəsində yüksək qiymətləndirilib. 1886-cı ildə Tiflisdə nəşr edilmiş "Vinodeliye na Kafqaze" iqtisadi oçerkində P.V.Dzyubenko qeyd edir ki, düzgün hazırlanar və saxlanarsa, ticarəti düzgün təşkil edilərsə, Azərbaycan şərabları müvəffəqiyyətlə Fransanın Bordo şərabını əvəz edə bilər.*



Ta qədimlərdən Azərbaycanda üzümçülük və şərabçılıq əhalinin əsas məşğuliyyət sahələrindən olub. Onun dilbər guşəsi Naxçıvanda Günəş radiasiyasının illik miqdarının 150-160 kilo kalori kvadratsantimetrə çatması (bu miqdar radiasiya keçmiş SSRİ-də yalnız Özbəkistanın düzən ərazilərində qeydə alınırdı) burada becərilən üzüm və ondan alınan şərabın daha da keyfiyyətli olmasına zəmanət verir. Yuxarıda qeyd etdiyimiz kimi, üzüm quraqlığa davamlı olduğu üçün ta qədimdən Naxçıvanda suvarma suyunun azlıq təşkil etdiyi Əlincə çayı vadisində, alçaq və orta dağlıq hissəsindəki yaşayış məntəqələrində, indiki Babək rayonunun Sirab, Qahab, Zeynəddin, Cəhri, Nehrəm kəndlərində, Sədərəkdə bu bitkinin əkilməsinə daha çox üstünlük verilib. Tarixi mənbələrdə də Naxçıvanda üzümçülüyün qədim ənənələri barədə söhbət açılır. Belə ki,1727-ci il "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə əhalinin bütün növ məşğuliyyəti kimi üzümçülük barədə də geniş məlumat verilir. İstehsal olunan məhsulun dəyəri və alınan vergilər barədə statistik məlumatların mövcud olduğu mənbədə üzümlük sahələri "qitə" ölçü vahidi ilə verilib. Adlı siyahıda hər kəsin bir qitə (bəzən şərik) və ya yarım qitə üzümlüyü olması barədə məlumatlara rast gəlinir. Məsələn, Cəhri kəndində 160, Yuxarı Əylis kəndində 190, Ordubad şəhərində 101 qitə üzüm bağı olduğu göstərilir.

Adıçəkilən mənbədə Əlincə çayı vadisində yerləşən, bu gün də həyatyanı sahələrdəki əkinin əsasını üzümçülük təşkil edən kəndlərin hamısından üzümə görə vergi alınması barədə faktlara da rast gəlinir. Bu siyahıda nisbətən dağlıq ərazidə olan Göynük, Şurud, Qal (Gal), Aşağı Anzır kəndlərinin də adı vardır. Maraqlıdır ki, Cəhridən başqa, bugünkü Babək rayonu ərazisində olan heç bir yaşayış məntəqəsindən üzümə görə vergi alınmayıb. Əksinə, həmin dövrdə Ordubadın dağ kəndlərindən olan Parağa 291, Çənnəb 4500, Düylün 700, Anaqut 1700, Dırnıs 2200, Kələki 1500, Unus 1800, Aşağı Əylis 2800, Anabad isə 450 ağça üzüm vergisi ödəyib.

Üzümçülüklə bağlı əlimizdə olan digər yazılı mənbələr çar Rusiyası dövrünə aiddir. Bu mənbələr göstərir ki, Naxçıvanda bir sıra süfrə üzüm növləri ilə yanaşı, kişmiş və mövüc istehsalı üçün yararlı üzüm sortları daha çox yayılıb. Doğrudan da, Naxçıvanda xəlili, hüseyni, əsgəri, kürdəşir, inəkməcəyi, sahibi, qızıl üzüm, keçiməcəyi, gülabı, kişmişi, ağ kişmişi kimi süfrə üzümlərinin əksəriyyəti Naxçıvanın aborigen üzüm sortlarıdır və kişmiş hazırlanması üçün əsas xammaldır. O cümlədən aborigen üzüm sortu olan hənəqırna mövüc hazırlamaq üçün ən əlverişli sortdur.

*Haşiyə:* Ehtimal etmək olar ki, "hənəqırna" üzüm növünün adı "hələ qırma" sözündən əmələ gəlib. Çünki üzümlüklərdə ən gec yetişən və mövsümün axırında toplanan üzüm növüdür. Digər üzüm sortlarının 5-6 kiloqramından bir kiloqram mövüc alındığı halda, hənəqırnanın 2-3 kiloqramından bir kiloqram mövüc alınır. Hənəqırna bağlardan ən sonda dərilən üzüm sortudur. Milaxlarda asılaraq Novruz bayramına kimi qala bilir. Payız yarı olduqdan sonra pendir-çörəklə hənəqırna bir çox naxçıvanlının sevimli yeməyinə çevrilir.

Rus tədqiqatçısı M.Ballas aksiz sənədlərinə əsaslanaraq göstərir ki, 1870-ci ildə Naxçıvanda 1454 desyatindən 335 min 167 pud və yaxud 5362,7 ton üzüm yığılıb. Qafqaz Statistika İdarəsinin Qafqaz haqqında məlumat məcmuəsinin III cildinin 275-ci səhifəsində göstərilir ki, Ordubad da daxil olmaqla, Naxçıvan qəzasında (1850-1874-cü illər üçün) 2454 desyatin üzümlük olub və burada hər desyatindən orta hesabla 168 pud və yaxud 6 min 596 ton üzüm götürülüb. Məhəmməd Həsən Baharlı isə qeyd edir ki, 1914-cü ildə qədər Naxçıvan quberniyasında, təxminən, 5 min desyatin üzüm sahəsi olub.

Sovet hakimiyyəti qurulana qədər Naxçıvanda müəyyən qədər üzüm sahəsi olsa da, mənbələrdə böyük plantasiyalar və şərab zavodları olan şəxslərin adına rast gəlmirik. 1920-ci ildən sonra əksər kəndlərdə əhaliyə verilən torpaq sahələrində üzüm bağları salınmışdı. Ayrılan sahələr bir-birinə yaxın olduğu üçün fərdi sahələr bir yerdə plantasiya əmələ gətirirdi. Məsələn, Sirab kəndində üç sahədə "Rəncənə" adlı yerdə 60 hektara yaxın, "Hacı Rəcəb" bağlarında 5 hektar, "Dayçan" bağlarında isə 55 hektara yaxın üzümlük sahələri salınmışdı. 1932-ci ildən başlayaraq bağlar bir neçə mərhələdə alınaraq kolxozlaşdırıldı.

1960-cı illərin ortalarından etibarən kolxozlar sovxoza, xüsusilə üzümçülük sovxozlarına çevrildi, yeni üzüm plantasiyaları salınmağa başlandı. Digər respublikalardan – Özbəkistan, Türkmənistan, Gürcüstan, eləcə də Avropa dövlətlərindən yeni üzüm sortları olan üzüm çilikləri (əkmək üçün tənək budaqları) gətirildi. Salınan bağlar cərgə üsulu ilə əkilir, şpalerlərə (beton dirəklər və onlara çəkilən üç cərgə məftil) qaldırılırdı. Dar və geniş cərgəli olmaqla, cərgəarası 3 və 3,5 metr götürülürdü ki, traktorlar aradan keçib şum apara bilsin. Bağların arasını Qarşılıqlı İqtisadi Yardım Şurasının (QİYŞ) üzvü olan sosialist dövlətlərindən Bolqarıstanın istehsal etdiyi kiçik qabaritli "Bolqar" traktorları şumlayırdı.



Naxçıvanda üzümçülüyün inkişafı ulu öndər Heydər Əliyevin 1969-cu ildə ölkəmizə rəhbərliyə gəlişindən sonra yeni mərhələyə yüksəldi. Dahi şəxsiyyətin himayəsi ilə həmin illərdə üzüm plantasiyalarının sahəsi də bir neçə dəfə genişləndi. Belə ki, 1970-ci ildə 7 min 400 hektar, 1975-ci ildə 10 min 4 hektar, 1981-ci ildə isə 18 min hektar sahədə üzümlük salındı. İstehsal olunan məhsulun həcminə gəldikdə isə ən yüksək göstərici 1981-ci ildə qeydə alınıb. Belə ki, həmin dövrdə Naxçıvanda 103 min 543 ton məhsul tədarük edilib. Ümumiyyətlə, ulu öndərin respublikaya rəhbərlik etdiyi dövrdə ölkəmizdə üzümün illik istehsalı 2 milyon tona çatdırılıb. İstehsal olunan bu məhsulun 148 min tonu Naxçıvan Muxtar Respublikasının payına düşürdü. Üzüm istehsalına görə birinci yerdə Şərur, ikinci yerdə Babək, üçüncü yerdə Culfa, dördüncü yerdə Ordubad, beşinci yerdə isə Şahbuz rayonu dayanırdı. Hətta ərazisi dağlıq və dağətəyi olan Şahbuz rayonunda ildə 5 min ton üzüm tədarük olunurdu.

Ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyindən uzaqlaşdırılmasından sonra bu sahədə ciddi tənəzzül baş verdi. Belə ki, 80-ci illərin əvvəllərindən etibarən üzüm plantasiyalarının sahəsi və eləcə də üzüm məhsulunun yığım həcmi azalmağa başladı. SSRİ-də M.S.Qorbaçovun hakimiyyətə gəlməsi Azərbaycanın hərtərəfli bəlaya düçar olmasına, o cümlədən üzüm plantasiyalarının da vəhşicəsinə dağıdılmasına səbəb oldu. "Alkoqolizmə və sərxoşluğa qarşı mübarizə" devizi altında həyata keçirilən tədbirlər milyonlar bahasına salınan üzüm bağlarının dağıdılmasına səbəb oldu.

Yaxşı xatirimdədir, 1986-cı ildə partiya uçotundan çıxmaq üçün Şahbuz rayonuna gəlmişdim. Şahbuz İcraiyyə Komitəsinin rəhbərliyi telefonda təsərrüfat başçılarından sökülən bağlar haqqında hesabat istəyir, az bağ sökənləri danlayır, təsdirirdi. Onu da qeyd edək ki, sökülən bağların əksəriyyətinin üzümü yığılmamış, eləcə məhsul üzərində buldozerlə kürənirdi. Təbii ki, bu göstəriş SSRİ rəhbərliyi tərəfindən verilmişdi və bu planın nəticəsi idi ki, 80-ci illərdə 18 min hektara çatdırılan üzüm plantasiyaları, həmçinin milyon manat pul vəsaiti hesabına başa gələn şərab zavodları dağıdıldı. Ölkəmiz böyük bir gəlirdən məhrum olduğu kimi, əhali də çox sayda iş yeri itirdi.

Üzümçülüyün yenidən dirçəldilməsi, bu sahədəki ənənələrin bərpa edilməsi, yeni üzümlüklərin salınması, bol məhsul istehsalı, bir sözlə, üzümçülüyün şöhrətinin özünə qaytarılması müstəqillik illəri ilə bağlıdır. Belə ki, ulu öndər Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə gəldikdən sonra Azərbaycanda üzümçülüyün daha sürətli inkişafı üçün əlverişli şərait yaradılıb və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb. 2002-ci ildə "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub. 2011-ci il dekabrın 15-də "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı", Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" qədim diyarda üzümçülüyün də yenidən dirçəlməsinə səbəb olub.

Bu gün Naxçıvanda üzümlüklərin sahələri genişləndirilməklə yerli üzüm istehsalına dövlət tərəfindən hərtərəfli qayğı göstərilir. Dövlət indi kəndliyə kredit də verir, texnika da, su da, digər qayğılar da göstərir. Təki bir vaxtlar bağlarda becərilən minillik qədim üzüm sortları yenidən süfrələrimizi bəzəsin. Artıq bu işdə əhəmiyyətli uğurlar qazanılıb. Belə ki, son illər təkcə Babək rayonunun Nehrəm kəndində 180 hektar sahədə salınan "Sumqala" üzümçülük təsərrüfatı, Babək qəsəbəsində iməciliklər yolu ilə salınan yeni üzümlük, eləcə də Didivar kəndində Hüseynqulu Bədəlova, Babək qəsəbəsində Ənvər Hüseynova məxsus fərdi üzümçülük təsərrüfatları ilbəil fəaliyyətlərini genişləndirir, bol məhsul istehsal edərək daxili bazarın keyfiyyətli yerli məhsula olan tələbatını ödəyirlər. Nehrəm kəndindəki üzümlükdən istehsal olunan məhsul paytaxt Bakı ilə yanaşı, Rusiya bazarlarına da satışa çıxarılır. Bundan əlavə, üzümdən kişmiş və mövüc də hazırlanır. Hazırda məhsulu uzun müddət saxlamağa imkan verən və tutumu 250 ton olan soyuducu anbar da inşa olunur. Burada 200 nəfər işlə təmin olunub. Gələcəkdə təsərrüfatın fəaliyyəti daha da genişləndirildikdən sonra iş yerlərinin sayı 500-ə çatdırılacaq.

Bir məsələni xüsusi vurğulamaq lazımdır ki, salınan həmin bağlarda keçmiş ənənələrdən istifadə etməklə unudulmaqda olan üzüm sortları yenidən bərpa edilib.

Digər aqrar sahələr kimi, üzümçülüyün də inkişafına göstərilən dövlət qayğısı üzüm sahələrinin genişləndirilməsi, istehsalın həcmi və məhsuldarlığın tədricən artımına səbəb olub. Bu gün qədim diyarımızın torpaq-iqlim şəraiti üzümçülüyün daha da inkişaf etdirilərək istehsalın artırılmasına, əhalinin müxtəlif çeşidli, yüksəkkeyfiyyətli süfrə üzümünə, şərabçılıq və digər emal müəssisələrinin isə xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan verir.

Söhbət şərabçılıqdan düşmüşkən qeyd edək ki, ailə təsərrüfatı sahibləri yaradılan şəraitdən bəhrələnib verilən kreditlər hesabına yeni üzümlük sahələri sala və şərabçılıqla məşğul ola bilərlər. Çünki Naxçıvanda yetişən üzümlərdən alınan şərab, düzgün hazırlanarsa, yaxşı alıcı kütləsi qazana bilər ki, bu da, ilk növbədə, yeni iş yerlərinin yaranmasına, muxtar respublikanın ixrac potensialının daha da artmasına, eləcə də qədim diyarın iqtisadiyyatının gücləndirilməsinə şərait yaradar.

**Zaleh NOVRUZOV**

İnkişaf edən bölgələrimiz

# Dağlara söykənən dağ vüqarlı, təbiət gözəli ŞAHBUZ

***Şahbuz muxtar respublikamızın ən ucqar və dilbər bölgələrindəndir. Əzəmətli dağların qoynuna sığınan bu rayon ölkəmizdə Batabat yaylağı ilə və bir də Məmməd Araz yurdu kimi hər kəs tərəfindən tanınır. Şahbuz həmçinin diyarımızda uzun illərdən bəri həyata keçirilən sosial-iqtisadi inkişafdan bəhrələnən bölgələrimizdəndir.***

Muxtar respublikamızda aparılan quruculuq işləri, əsasən, ucqarlardan başladığından Şahbuz rayonu da uzun bir yeniləşmə dövrünə qədəm qoydu. Bu yenilik Şahbuzun möcüzəli təbiəti ilə bir harmoniya yaradıb. Elə bu harmoniya ucqar dağ rayonunun axarlı-baxarlı, qonaqlı-qaralı olmasına da şərait yaradıb. İndi rayona gələnlər bu harmoniyanı təəccüblə qarşılayır və buradan yüksək təəssüratla ayrılırlar.

Yayla payızın yolayrıcında – havaların nisbətən sərinləşdiyi, bu dağlıq rayonun dağ vüqarlı, torpaq sevdalı insanlarının zəhmət bəhri olan bol məhsulun toplandığı bir vaxtda üz tuturuq təbiət gözəli Şahbuza...

### *Nə gözəldir yollar, yol boyunca ağaclar...*

Təxminən, 25-30 il bundan əvvəl tək təbiətin bəxş etdiyi gözəlliklərlə kifayətlənməli olan bu rayonun yol infrastrukturu dözülməz vəziyyətdə idi. Naxçıvan şəhərindən rayon mərkəzinə, hələ buradan kəndlərə getmək insana dağ aşmaq qədər ağır gəlirdi. Çünki 30-45 dəqiqəyə rayon mərkəzinə, 1 saatdan artıq vaxta isə rayonun ucqar kəndlərinə ancaq çatmaq olurdu. Çala-çökək, yağışlı havalarda zığ-palçıqlı yollar qışda daha təhlükəli olur, bu da avtomobillərin normal hərəkətinə çətinlik yaradırdı.

Maşınımız get-gedə yüksəkliklərə doğru qıvrılan asfalt, hamar yollarla irəlilədikcə ötənləri xatırlamamaq, təbii ki, mümkün deyildi. Çünki ətrafa göz gəzdirdikcə abad yolların sağında-solunda sıralanan ağacların sərin küləyin mehindən dalğalanan yarpaqları da xəyalən insanı o illərə aparır, o yollarla, bu yolların müqayisəsini gözlər önündə canlandırır. Canlandırmaya da bilməz axı. O illərin daşlı-çınqıllı, tullantılı yol kənarlarını indi göz uzandıqca uzanan, insanların iməciliklər yolu ilə əkib-becərdikləri, zəhmətin bəhrələri bəzəyir. Şahbuza doğru uzanan yollara ağaclar yoldaşlıq edir. Bu yoldaşlıq "Abad yurd yolundan bəlli olar" deyiminə yaşıllığın da bolluğunu əlavə edərək hələ qarşıdakı yaşayış məntəqələrində bizi hansı gözəlliklərin qarşılayacağından xəbər verir. Bəli, bir vaxtlar 30-45 dəqiqəmizin keçdiyi yollar bu gün bizi 15-20 dəqiqəyə rayon mərkəzinə çatdırır. Buradan rayonun bütün kəndlərinə istiqamətlənən yollar da ötən illərin quruculuq töhfələrindən bəhrələnərək abadlaşıb, gözəlləşib. Ağaclarsa, sanki yollarla yaşıdmış kimi onlarla başlayıb, onlarla bitir...

### *Yaşıllıqlara bürünən şəhər*

Rayona üz tutan bütün qonaqları rayon mərkəzi olan, 89 yaşlı bu bölgənin 12 yaşlı "gənci" – Şahbuz şəhəri qarşılayır. Dağların əhatə etdiyi bu yaşıllıqlara bürünən şəhər "ömrünün uzun illərini" qəsəbə statusu ilə yaşayıb. Quruculuq illərinin bir-birinin ardınca bu yaşayış məntəqəsinin hüsnünə vurduğu naxışlar onun qəsəbədən şəhərə çevrilməsinə səbəb olub.

"Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Şahbuz qəsəbəsinə şəhər statusunun verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il 27 dekabr tarixdə Sərəncam imzalayıb. Şəhər elə bir ərazidə yerləşir ki, buradan rayonun bütün yaşayış məntəqələrinə yollar uzanır. Sanki bir "ana" kimi qollarını övladlarına açır.

Quruculuq prosesinin ağuşuna aldığı muxtar respublikamızın hər bir bölgəsi, rayonu, qəsəbəsi, kəndi kimi Şahbuz şəhəri də müasir dövrün tələblərinə uyğun həyata keçirilən kompleks yeniləşmə, abadlıq tədbirləri ilə sovet dövründəki köhnəlik, miskinlik yağan simasını tərk edib. Burada ildən-ilə ucaldılan, əsaslı təmir olunan yaraşıqlı inzibati və ictimai yaşayış binaları, salınan parklar, bağlar, abadlaşdırılan yol və küçələr kiçik şəhərə böyük dövlət qayğısının göstəricisidir.



### *Quruculuq töhfələri rayonun hüsnünü oxşayır*

Günü-gündən gözəlləşən Şahbuzun hüsnünü quruculuq töhfələri daha da gözəlləşdirir. Bu il Şahbuz şəhərində Mədəniyyət Sarayı, aviakassa binasının istifadəyə verilməsi bu füsunkarlığı daha da artırıb. Hazırda Şahbuz şəhərində çoxmənzilli yaşayış binasının, Badamlı qəsəbəsində "Badamlı" mineral sular zavodunun, xidmət mərkəzinin, Türkeş kəndində 66 yerlik məktəb binasının, kənd və xidmət mərkəzlərinin, Ağbulaq kəndində Xizək Mərkəzinin tikintiləri, 4,2 kilometr Sələsüz-Türkeş avtomobil yolunun əsaslı şəkildə yenidən qurulması, yenidən çəkilən 5,4 kilometr Sələsüz-Badamlı qəsəbə yolunun



genişləndirilərək eninin 10 metrə çatdırılması, üzərində iki körpünün yaradılması, yol yatağında işlərin yekunlaşdırılaraq asfalt örtüyün salınması kimi quruculuq töhfələri isə rayonun çox yaxında hüsnünə hansı naxışları vuracağını göz önünə gətirir.

Bu il aprel ayının 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Badamlı" mineral sular zavodunun inşası ilə maraqlanması, istehsal sahəsində avadanlıqların quraşdırılması, zavodun ərazisində, eləcə də Badamlı qəsəbəsində abadlıq işlərinin aparılması barədə tapşırıqlar verməsi burada görülən işlərin keyfiyyətinə və sürətinə öz təsirini göstərib.

Sözsüz ki, istifadəyə veriləcək "Badamlı" mineral sular zavodunun fəaliyyəti ilə bu möcüzəli suyun şöhrəti dünyanın daha neçə-neçə ölkəsinə yayılacaq. Ulu Yaradanın Naxçıvanımıza bəxş etdiyi bu təbii nemət muxtar respublikamızın iqtisadiyyatına xeyli gəlir gətirəcəkdir.

### *Təhsil ənənələri, müasir səhiyyə və mədəniyyət sistemi əsas inkişaf prioritetləridir*

Rayonun şəhər və kənd məktəblərinin onlarla məzunu ölkəmizdə elmi potensialları ilə seçilən qabaqcıl ziyalılardandır. Bu rayon muxtar respublikamızın özünəməxsus təhsil ənənələri ilə seçilən bölgələrindəndir. Son illər ən ucqar dağ kəndlərimizdəki müasir standartlara cavab verən məktəblərdən tutmuş şəhər məktəblərinədək hər birində ali təhsil ocaqlarına qəbulun səviyyəsi ildən-ilə yüksəlir. Buna yeni tikilən və hərtərəfli şərait yaradılaraq istifadəyə verilən, maddi-texniki bazası gücləndirilən, savadlı müəllim kollektivlərinin çalışdığı məktəblərdə təlim-tərbiyə işinin düzgün təşkili nəticəsində nail olunub. Builki məzunların uğurları da ürəkaçandır. Rayonun tam orta məktəblərindən 2018-2019-cu tədris ilində orta ümumtəhsil məktəblərini bitirən 139 məzunun 128-i, yaxud 92 faizi ali məktəblərə sənəd qəbulunda iştirak edib. İmtahanın nəticələrinə əsasən 17 nəfər 500-dən yuxarı, 1 nəfər isə 600-dən yuxarı topladığı balla tələbə adını qazanaraq rayonun bütün pedaqoji kollektivlərini və valideynlərini sevindiriblər. Bu il Heydər Əliyev adına Hərbi Liseyə isə rayondan 15 şagird qəbul olub.

Əhalinin sağlamlığına həssaslıqla yanaşılan muxtar respublikamızda səhiyyə sistemi son illər ən çox diqqət göstərilən sahələrdəndir. Şahbuz rayonunda da ötən illər bu sahəyə böyük investisiya qoyulub, rayon mərkəzindən ta ən ucqar kəndlərədək hər birində müasir səhiyyə ocaqları yaradılıb, onların hər biri müasir avadanlıqlarla təchiz olunub, maddi-texniki bazaları möhkəmləndirilib. Əvvəllər bu sahədəki çatışmazlıqlar üzündən adi bir xəstəlik üçün Naxçıvan şəhərinə üz tutan, bunun üçün xeyli vaxtını itirən və vəsait sərf edən insanlar indi yaşadıqları kəndlərdəki müasir həkim ambulatoriyalarının və feldşer-mama məntəqələrinin xidmətlərindən yararlanırlar.

Ötən illərdə tikilib istifadəyə verilən mədəniyyət müəssisələri əvvəllər heç bir şəraiti olmayan uyğunlaşdırılmış binalarda çalışan işçilərin fəaliyyətində də dönüş yaradıb. Şahbuz şəhərində bu il istifadəyə verilən müasir üslubda ucaldılmış memarlıq abidəsi olan rayon mədəniyyət sarayı mədəniyyət işçiləri üçün əvəzsiz töhfədir.





### *Şahbuzlular torpağa tər verib, ondan zər alırlar…*

Bu yerin insanları torpağa sevdalı, zəhmətkeş, əməyi ilə çörəyini qazananlardır. Rayonun dağlıq ərazidə yerləşməsi burada aqrar sahənin üstünlük təşkil etməsinə səbəb olub. Bineyi-qədimdən əkin-biçin, arıçılıq, heyvandarlıq, maldarlıq, quşçuluq rayonun iqtisadiyyatının əsasını təşkil edib.

Naxçıvan Muxtar Respublikasında "Ailə təsərrüfatları ili" elan olunan 2019-cu ilin ötən dövründə rayonda əhalinin əsas məşğulluq sahəsi olan aqrar sektorun inkişafına göstərilən dövlət qayğısı sayəsində bu sahəyə maraq xeyli artıb, ötən il bu ilin məhsulu üçün 1411 hektar sahədə payız əkini, cari ilin yazında 205 hektar sahədə yaz əkini aparılmaqla, ümumilikdə, 1616 hektar sahədə taxıl əkini keçirilib. Həmçinin cari ildə 434 hektar sahədə kartof, 160 hektar sahədə tərəvəz, 9 hektar sahədə bostan bitkiləri və 440 hektar sahədə digər əkinlər aparılıb. Bu dövr ərzində 4437 ton taxıl, 1248 ton kartof, 1018 ton tərəvəz yığılıb. 2019-cu ilin ötən dövrü ərzində barverən meyvə bağlarından 1368 ton məhsul yığılıb. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz çoxdur.

Ötən yarım ildə təsərrüfat sahiblərinə istifadə etdikləri yanacaq, motor yağlarına görə yardımların və gübrələrin verilməsi davam etdirilib, məhsul istehsalçılarına 431 nəfər olmaqla, 70 min 550 manat vəsait ödənilib, 317 tondan artıq gübrə verilib.

Kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısı ildən-ilə artdığından torpaq mülkiyyətçiləri güzəştli kredit hesabına lizinq vasitəsilə 2019-cu ilin ötən dövründə 1 taxılbiçən kombayn, 1 presvuran, 2 yaş və quru otdoğrama maşını alıblar.

Aqrar sahənin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması heyvandarlığın inkişafına da öz müsbət təsirini göstərib. Rayon əhalisinin fərdi təsərrüfatlarında 24 min 750 baş iribuynuzlu, 133 min 520 baş xırdabuynuzlu, 121 min 756 ədəd quş, 20 min 547 arı ailəsi saxlanılır ki, bu da 2018-ci ilin analoji dövrü ilə müqayisədə 394 baş iribuynuzlunun, 2091 baş xırdabuynuzlunun, 1215 baş quşun, 163 arı ailəsinin artımı ilə müşahidə olunur. Bu artım tempinin nəticəsidir ki, 2019-cu ilin ötən dövründə, 1558 ton ət, 11046 ton süd, 9 milyon 93 min 800 ədəd yumurta, 147,8 ton yun istehsal olunub.

Cari ilin ötən dövrü ərzində malların cins tərkibinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılıb, bu məqsədlə 241 baş inəkdə süni mayalanma aparılıb, əvvəlki dövrdə mayalanmış inəklərdən 113 baş cins buzov doğulub.

İndi dövlət qayğısı ilə abadlaşan kəndlərdə insanlar üçün hər cür şərait yaradılıb. Abad yollar, müasir infrastruktur kəndlərin inkişafına səbəb olub. Torpaqdan əldə olunan gəlirlə evlərini, həyət-bacalarını da abadlaşdıran şahbuzlular xoş, firavan həyat sürürlər.

2019-cu ilin Naxçıvan Muxtar Respublikasında "Ailə təsərrüfatları ili" elan olunması rayonun zəhmətkeş insanlarını daha da həvəsləndirib, onların müxtəlif festival və kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında iştirakını fəallaşdırıb.

### *Dövlət qayğısı Şahbuzu cəlbedici turizm məkanına çevirib*

Muxtar respublikamızın təbiət gözəli olan Şahbuz bütün fəsillərdə füsunkar görünüşü, bənzərsiz havası ilə turistləri cəlb edən bölgədir. Yazı çiçək ətirli, qışı möcüzə, yayı bir başqa mənzərə, payızı bol meyvəli olan rayonun son illər aparılan quruculuq işləri ilə daha da gözəlləşən, müasirləşən hüsnü, infrastruktur sahələrin inkişafı buranı əsl turizm məkanına çevirib. Şahbuzda 140-a yaxın tarix mədəniyyət abidəsinin qeydiyyata alınması, onlardan 6-nın dünya əhəmiyyətli, böyük əksəriyyətinin isə arxeoloji abidələr olması turistlərin diqqətini çəkən məqamlardandır. Rayonun coğrafi mövqeyi isə burada ekoturizm, kənd yaşıl, müalicə, qış və digər turizm növlərinin inkişafına böyük imkan yaradır.

Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən Ağbulaq isə gözəl təbiəti, heyrətamiz coğrafi mövqeyi olan turizm üçün çox əlverişli kənddir. Burada 2013-cü ildən fəaliyyət göstərən istirahət mərkəzi kənddə turizmin inkişafına təkan verib.

Güneyli-quzeyli, axarlı-baxarlı Nursu kəndi sevimli şairimiz Məmməd Arazın ata yurdudur. "Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 28 iyun tarixli Sərəncamı ilə yaradılan ev-muzeyi kəndi turistlərin ilin bütün fəsillərində ən çox üz tutduqları ünvanlardan birinə çevirib.

Batabat yaylağına göstərilən davamlı qayğı ilə bir dəfə Şahbuzda olan qonaq və turistlər bu doyumsuz gözəllikləri görmək, əsrarəngiz məkanın dörd fəslinin bir-biri ilə harmoniya yaradan mənzərələrini seyr etmək üçün yenidən bura qayıdır.

### *Son söz…*

Bəli, illərin quruculuq töhfələri, böyük diqqət və qayğı muxtar respublikamızın digər bölgələri kimi, Şahbuz rayonunun da sosial mənzərəsinə daha gözəl, yaddaqalan naxışlar vurub, əhalinin rahat yaşamasına xidmət edib. Çalışdıqları inzibati binaların, yaşadıqları ictimai binaların, hər gün dəfələrlə keçdikləri küçə və yolların, park və səkilərin abadlaşması, tozanaq, çirkab mənbəyi olan hektarlarla boş sahələrdə yeni binaların ucaldılması, bağların salınması, uşaqların təhsili üçün müasirtipli məktəblərin, hərtərəfli şəraiti olan uşaq bağçasının istifadəyə verilməsi, Batabat, Salvartı və sair kimi təbiət gözəli olan bölgələrdən çəkilib gətirilən saf suların evlərindən, həyətlərindən axması, kəndlərdə şəhər rahatlığının yaradılması şahbuzlulara illərlə həsrətində olduqları, arzularında canlandırdıqları hərtərəfli, rahat həyat tərzini bəxş edib. Bu gün Şahbuza gələn qonaqlar yaradılan yenilikdən böyük zövq alır, əvvəllər burada yaşayıb, sonra köçüb gedən insanlar isə gözlərinə inanmırlar ki, bu rayon onların qoyub getdikləri həmin rayondur. Hər kəsin isə ümumi fikri budur: "Məhz indi dağlara sığınan Şahbuzun gözəl təbiəti ilə xarici görünüşü bir-birini tamamlayır".

✍ **Mətanət MƏMMƏDOVA**

***Bu yazı "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

Milli mətbəximiz

## Muxtar respublikada milli mətbəx mədəniyyətimiz layiqincə təmsil olunur



***Muxtar respublikamızda milli dəyərlərimizin qorunması, təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamı xalq yaradıcılığının müxtəlif sahələrinin yaşadılması və inkişaf etdirilməsinə mühüm töhfələr verir. Həmin sərəncamda milli dəyərlərimizin digər sahələri ilə yanaşı, milli mətbəxin öyrənilməsinə və təbliğinə xüsusi diqqət yetirmək də əsas vəzifələrdən biri kimi qarşıya qoyulub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 9 aprel tarixli Sərəncamı ilə yaradılan "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin fəaliyyətinin əsas istiqaməti də xalq yaradıcılığının ən qədim sahələrindən biri olan kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi və inkişaf etdirilməsi, təbliği, tanıdılması, unudulmaqda olan mətbəx nümunələrimizə yeni həyat bəxş edilməsindən ibarətdir. Bunun üçün əsasını təbii qidalar təşkil edən milli mətbəx nümunələrimizin sistemli və dolğun şəkildə tanıdılması həm də kulinariya turizminin inkişafı üçün böyük əhəmiyyətə malikdir.

"Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin direktoru Türkay Səfərzadə bildirdi ki, Naxçıvanın əlverişli-coğrafi şəraiti, uzaq qərinələrə gedib çıxan böyük keçmişə və yüksək inkişaf etmiş mədəniyyətə malik olması onun mətbəxində də öz əksini tapıb. Muxtar respublikamızda zəngin tarixə malik mətbəx mədəniyyətimizin mühüm tərkib hissəsi olan süfrə mədəniyyəti hər zaman ən yüksək səviyyədə qorunub saxlanılıb.

Mərkəzin direktoru söhbət zamanı onu da bildirdi ki, milli mətbəximizin qorunub saxlanılması, onun elmi-tarixi əsaslarla lazımınca inkişaf etdirilməsi, milli yeməklərimizin başqaları tərəfindən özününküləşdirilməsinin qarşısının alınması istiqamətində əsaslı addımlar atılır. Naxçıvan mətbəxinə məxsus olan müxtəlif yemək reseptləri tarixi faktlara dayanaraq kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkələr vasitəsilə Azərbaycan, rus və ingilis dillərində təbliğ edilir.

Qeyd edək ki, ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda bu istiqamətdə həyata keçirilən tədbirlər son illər ərzində milli və mənəvi, maddi və mədəni sərvətlərimizi özününküləşdirmək istəyən, xalqımıza məxsus bir sıra milli yeməklərimizi, o cümlədən plovu, dolmanı, basdırmanı, kababı, dovğanı öz adlarına çıxmağa çalışan bədnam qonşularımıza da tutarlı bir cavabdır.

Direktor qeyd etdi ki, mərkəzin əməkdaşları muxtar respublikanın müxtəlif bölgələrinə səfərlər etməklə, unudulmaqda olan mətbəx nümunələri haqqında məlumatların toplanması və bərpası, təbliği, mətbəxlə bağlı folklor nümunələrinin əldə olunması ilə müntəzəm məşğul olurlar. Mərkəz unudulmaqda olan bir sıra mətbəx nümunələrimizə də yeni həyat bəxş edib. Belə mətbəx nümunələri içərisində Şahbuz bölgəsinə məxsus "Şıppır qovurması" adlı yemək növünü, Ordubad rayonuna aid kömbə kökə və digər rayonlarımıza məxsus qurud əzməsi, çörək növlərindən biri olan cad və başqalarını göstərmək olar.

Türkay Səfərzadənin sözlərinə görə, mərkəz tərəfindən qədim mətbəx əşyaları və onların istifadə qaydaları da öyrənilir. Milli mətbəxlə bağlı folklor nümunələri toplanılır, qədim mətbəx nümunələrimizi tanıtmaq məqsədilə müsabiqələr, festivallar təşkil edilir. Kulinariya sahəsində bacarıqlı və istedadlı mütəxəssisləri müəyyən etməklə onlara hərtərəfli yardımların göstərilməsində və bu sahədə ixtisaslı kadrların hazırlanmasında əsaslı işlər görülür. Mərkəz milli mətbəxlə bağlı buklet və kitabların nəşrə hazırlanmasını da diqqətdə saxlayır. Belə ki, 2012-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamına əsasən "Naxçıvan mətbəxi" adlı, 2017-ci ildə isə Naxçıvan folklorunda mətbəx elementlərindən bəhs edən kitablar hazırlanıb.

Mərkəz muxtar respublikada milli mətbəximizə aid olan bütün tədbirlərdə, o cümlədən "Yaradıcı əllər", "Çörək", "Plov", "Kətə" festivalları çərçivəsində təşkil edilən müsabiqələrdə münsiflər heyəti kimi milli yeməklərin qiymətləndirilməsində yaxından iştirak edir.

"Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi hər həftənin 5-ci günü Naxçıvan Qızlar Liseyində təhsil alan şagirdlərə də milli mətbəximizin müxtəlif nümunələrinin hazırlanma qaydası ilə bağlı dərslərin tədrisini təşkil edir. Bu, gələcəkdə kulinariya sahəsində peşəkar kadrların hazırlanmasına öz töhfəsini verəcəkdir. Gələcəkdə belə dərslərin muxtar respublikamızın digər ümumtəhsil məktəblərində keçilməsi də nəzərdə tutulur.

Mərkəz Naxçıvan mətbəxinin təbliğ olunması sahəsində bir sıra işlər görüb, beynəlxalq kulinariya festivallarında da muxtar respublikamızı təmsil edib. 2011-ci ildə "Naxçıvan" komandası Türkiyədə keçirilən IX Beynəlxalq İstanbul Kulinariya Festivalında 20-yə yaxın ölkə ilə yarışıb, 4 gümüş medalla, 3 diplomla təltif olunub. Həmçinin Bakıda Novruz mətbəxinin təşkilində yüksək səviyyəli iştirakına və Naxçıvan mətbəxinin, təbliğinə görə, Beynəlxalq Kulinariya Günü münasibətilə Azərbaycan Milli Kulinariya Assosiasiyası tərəfindən diplomlarla təltif olunub.

Milli dəyərlərimizi qorumaq, illərin sınağından çıxmış mədəniyyətimizə sahib çıxmaq, onu müasir tələblər səviyyəsində zənginləşdirmək və nəsildən-nəslə ötürmək hər birimizin borcudur.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvanda bir qrup şəhid anası əsgərlərlə görüşüb

***Əlahiddə Ümumqoşun Ordu komandanlığının təşkilatçılığı və xeberlertv.info informasiya saytının təşəbbüsü ilə Naxçıvanda bir qrup şəhid anasının əsgərlərlə görüşü olub.***



Aprel döyüşləri zamanı və digər vaxtlarda torpaqlarımızın müdafiəsi zamanı qəhrəmancasına şəhid olan hərbi qulluqçuların yaxınları hərbi hissələrdə olub, Günnüt mövqeyində xidmət edən şəxsi heyətlə görüşüb, muxtar respublikamızın müxtəlif yerlərində şəhid məzarlarını ziyarət ediblər.

*Xeberlertv.info* informasiya saytının direktoru Şəfaqət Vəliyeva bildirib ki, şəhid anaları ilə əsgərlərin görüşünün keçirilməsində əsas məqsəd şəxsi heyətdə vətənpərvərlik, qəhrəmanlıq və döyüşkənlik keyfiyyətlərini möhkəmlətmək, şəhid ailələrinə mənəvi dəstək olmaqdır.

## Əsgərlərin tarixi yerlərə və muzeylərə gəzintisi təşkil edilib



Ötən həftə ərzində döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələr qazanmış əsgərlərin tarixi yerlərə və muzeylərə gəzintisi təşkil olunub.

Nümunəvi xidmətlərinə görə fərqlənən əsgərlər Heydər Əliyev və Dövlət Bayrağı muzeylərinə baş çəkiblər.

Tarixi eksponatlarla yaxından tanış olan əsgərlərimiz ulu öndərimizə, bayrağımıza, dövlətimizə, dövlətçiliyimizə olan sonsuz sevgilərini ifadə ediblər.

## "Ən yaxşı kəşfiyyatçı-istehkamçı" və "Ən yaxşı kəşfiyyatçı-qumbaraatan" adı uğrunda yarış

Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı və kəşfiyyat bölmələri arasında "Ən yaxşı kəşfiyyatçı-istehkamçı" və "Ən yaxşı kəşfiyyatçı-qumbaraatan" adı uğrunda yarış təşkil edilib.



Əvvəlcə yarış iştirakçılarının nəzəri bilikləri test üsulu ilə yoxlanılıb, hərbi topoqrafiyadan normativlər qəbul olunub. Sonra mühəndis hazırlığından kəşfiyyatçı-istehkamçılar minaların qurulması, mina sahələrinin aşkar olunması və keçidin açılması, minaaxtaranın işə salınması və istifadə qaydaları, ağac konstruksiyalı elementin hesabatının aparılaraq partladılması üsullarını praktik yerinə yetiriblər.

Ən yaxşı kəşfiyyatçı-qumbaraatan adını qazanmaq üçün əsgərlər qumbaraatanlardan praktik atışları icra ediblər. Yarışın əsas mərhələsindən sonra fiziki hazırlıqdan normativlər götürülüb.

Nəticələrə əsasən "Ən yaxşı kəşfiyyatçı-istehkamçı" adına əsgər Sabir Əliyev və "Ən yaxşı kəşfiyyatçı-qumbaraatan" adına əsgər Fərdi Məmmədov layiq görülüb. Sonda qaliblər Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən mükafatlandırılıblar.

## Minaatan bölmələri ilə döyüş atışlı taktiki-xüsusi təlim keçirilib



Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının minaatan bölmələri ilə döyüş atışlı taktiki-xüsusi təlim keçirilib.

Həyəcan siqnalı ilə qaldırılaraq təlim rayonunda atəş mövqelərini tutan bölmələr minaatan qurğularından döyüş atışlarını yerinə yetiriblər.

Planlı və plandankənar hədəfləri məhv edən heyətlər qarşıya qoyulmuş məqsədlərə nail olublar.

**Nəriman NƏCƏFOV**

## Şəhər və rayon birincilikləri başa çatıb



*Gənclərdən ibarət kənd komandaları arasında keçirilən futbol üzrə şəhər və rayon birinciliklərində həlledici görüşlər keçirilib.*

Şərur rayonu üzrə keçirilən görüşdə Aralıq kənd komandası Düdəngə komandasını quru hesabla məğlub edib – 4:0. Culfa rayonunda isə Camaldın Bənəniyar kənd komandasından üstün olub – 3:1.

Ordubad rayonu üzrə keçirilən final qarşılaşmasında Ordubad Kələntərdizəni, Sədərək rayonu üzrə Heydərabad Sədərək komandasını eyni hesabla məğlub ediblər (3:0). Babək rayonu üzrə keçirilən həlledici qarşılaşmada Nehrəm kənd komandası Babək qəsəbə komandasını minimal hesabla məğlub edib – 2:1. Şahbuz rayonunda Kükü Şahbuzdan (5:2), Kəngərlidə isə Qıvraq Şahtaxtından (6:2) üstün olub. Naxçıvan şəhəri üzrə final oyununda Qaraçuq və Qaraxanbəyli kənd komandaları qarşılaşıb və birincilər 8:3 hesabı ilə qalib gəlib.

Qalib komandalar təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının kəndlərində futbolun inkişafı üçün əlverişli şəraitin olması, yeni stadionların yaradılması Gənclər və İdman Nazirliyinin, Şəhər və Rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə həmin yaşayış məntəqələrində yarışların keçirilməsinə imkan verir.

## Çempionat öncəsi toplantı

***Futbol üzrə muxtar respublika çempionatının 2019-2020-ci illər mövsümünə hazırlıqla bağlı Naxçıvan Futbol Federasiyasında (NFF) iclas keçirilib.***

NFF-nin sədr müavini Sakit Rzayev, böyük məşqçi Əsgər Abdullayev və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov çempionatla bağlı gözləntilərin yüksək olduğunu və bunun üçün bütün təşkilati işlərin həyata keçiriləcəyini diqqətə çatdırıblar. Çıxış edənlər bununla bərabər NFF-nin uzunmüddətli plan və strategiyasının əsasını təşkil edən uşaq futbolunun inkişafı məsələsinin də önəmli olduğunu əsas gətirərək bildiriblər ki, bu amilin çempionatın reqlamentinə uyğunlaşdırılması məqsədəuyğun görülüb. Belə olan halda yeniyetmə və gənclər daha çox oyun şansı əldə edə biləcəklər. Nəticədə isə onların arasından istedadlı futbolçular aşkar olunaraq onların karyera imkanlarının artırılmasına dəstək veriləcək.



İclasda bu və digər məsələlərlə bağlı məşqçilərin təklif və fikirləri dinlənilib. Çempionatla bağlı tətbiq olunacaq işlər və qaydalar haqqında ümumi məlumatlarla tanış olan iştirakçılara yeni mövsümdə uğurlar arzulanıb.

✍ **Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Əhmədova Heyran Qabil qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 605